# Məişət zorakılığına məruz qalmış qadınlar üçün reabilitasiya proqramlarının hazırlanması

Məişət zorakılığına məruz qalmış qadınlar üçün reabilitasiya proqramı hazırlanmış və mövcud sığınacaqlarda tətbiq edilmişdir. Proqramın məqsədi məişət zorakılığına məruz qalmış qadınların fiziki və psixoloji problemlərinin həll olunması, qurbanların özlərinin və övladlarının həyat səviyyəsinin yaxşılaşdırılması üçün zəruri şəraitin yaradılması, eyni zamanda sosial və hüquqi müdafiəsini təmin etməkdən ibarətdir.

Məişət zorakılığına məruz qalmış qadınlar üçün reabilitasiya məqsədilə praktik psixoloqlar işə cəlb edilmişdir. Məişət zorakılığına məruz qalmış qadınlara və onların uşaqlarına tibbi, sosial, psixoloji, yardım göstərilmişdir.

Məişət zorakılığına məruz qalmış qadınlarla məşğulluq sahəsində konsultasiya aparılmış, peşə kurslarına cəlb edilmiş və onların işlə təmi olunmasına köməklik göstərilmişdir. Bütün bunlarla yanaşı məişət zorakılığına məruz qalmış qadınların vəkillə təmin edilməsi, onlara məhkəmə davasının açılmasında köməklik göstərilməsi, onları məhkəmə prosesində müşayət etmək və s. işlər həyata keçirilmişdir.